● Böyük terror

# Həbslər, edamlar, sürgünlər

**Azərbaycan SSR Kommunist Partiyasının heyəti dəfələrlə azalıb çoxalsa da, böyük terror vaxtı partiya üzvlərinin sayı xeyli azalmışdı. Azalmaya səbəb təkcə edamlar və həbslər deyildi, eləcə də partiya sıralarından xaricetmə və başqa səbəblər də var idi.**

Böyük terrordan əvvəl 1 yanvar 1937-ci ildə Azərbaycan Kommunist Partiyasının üzvləri və namizədlərinin ümumi sayı 47194 nəfər olmuş, lakin 1 yanvar 1938-ci ildə bu say 45331 nəfərə düşmüşdü. 1937-ci ilin may ayında baş tutmuş partiyanın Bakı Komitəsinin konfransından sonra XDİK tərəfindən 1938-ci il ərzində Bakı şəhər komitəsinin 36 üzvü və 4 namizədi həbs edil-



mişdi. Azərbaycan KP-nin 1937-ci il 3-9 iyul tarixlərində keçirilmiş 13-cü qurultayında 34211 nəfər üzv. 12906 nəfər namizəd (ümumi 47117 nəfər) var idisə, bir il sonra 1938-ci ilin 7-14 iyul tarixlərində keçirilmiş 14-cü qurultayda üzvlərin sayı 32135-ə, namizədlərin sayı isə 12494 (ümumi 44629 nəfər) nəfərə düşmüşdü.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 17 dekabr (№ 239).- S. 11.